Food and Agriculture Organization
of the United Nations

ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI ÜZRƏ
FAO-TÜRKİYƏ TƏRƏFDAŞLIQ PROQRAMI (FTPP II)

# Torpaqların tərk olunması probleminin həlli və torpaqların konsolidasiyası prosedurlarının təkmilləşdirilməsi məqsədilə kənd təsərrüfatı torpaqları bazarının inkişaf etdirilməsi

GCP/SEC/022/TUR


© FAO/Victor Sokolowicz

# Dayanıqlı kənd təsərrüfatı üçün tərk edilmiş torpaqların yenidən becərilməsi

Kənd təsərrüfatı torpaqlarının tərk edilməsi və ya istifadə edilməməsi bir çox ölkələrdə, xüsusilə Cənub-Şərqi Avropa və Qafqazda ümumi problemdir. Torpaqların tərk edilməsi ərzaq təhlükəsizliyinə təsir göstərir, iqtisadi imkanların itirilməsinə gətirib çıxarır və bir sıra digər mənfi sosial-iqtisadi və ekoloji nəticələrə səbəb olur.Torpaqların tərk edilməsinə gətirib-çıxaran köklü səbəblər bir-biri ilə bağlıdır və bu səbəblərə kənd yerlərindən şəhərlərə miqrasiya, fermer təsərrüfatlarının qeyri-səmərəli strukturları, vərəsəlik payları səbəbindən torpaqların daha kiçik sahələrə  bölünməsi, eləcə də kənd əhalisinin yaşlanmasıdır. Bir çox ölkələrdə torpaqların tərk edilməsinin əsasını təşkil edən ən vacib amil təsərrüfatların kiçik və ya orta ölçülərdə olması və torpaqların fraqmentasiyasıdır ki, bu da kənd təsərrüfatı fəaliyyətlərini iqtisadi baxımdan səmərəsiz edir.

**Bu layihə Azərbaycan, Türkiyə və Özbəkistanda aqrar təsərrüfat strukturunun təkmilləşdirilməsi və genişləndirilməsini asanlaşdırmaqla yanaşı, kənd təsərrüfatı torpaqlarından daha dayanıqlı istifadəni təmin etmək və torpaqların tərk olunması problemini həll etmək üçün torpaq bankçılığı və digər torpaq bazarının inkişafı tədbirləri və alətlərinin həyata keçirilməsi üçün institusional potensialın inkişafına dəstək vermək məqsədi daşıyır.**

**Layihə həmçinin Türkiyədə mövcud torpaq konsolidasiyası prosedurlarını nəzərdən keçirmək və regional təcrübəyə əsaslanaraq təkmilləşdirmələr təklif etmək məqsədi daşıyır.**


© FAO

# LAYİHƏNİN İCMALI

**Layihənin məqsədi:**
Türkiyədə davam edən torpaq konsolidasiyası proqramı və Azərbaycanda planlaşdırılan proqramla əlaqədar torpaq bankı alətinin tətbiqini dəstəkləmək və Özbəkistanda torpaq bazarının inkişaf ehtiyacını və torpaq idarəçiliyi alətlərinin mümkünlüyünü qiymətləndirməkdir.

**Hədəf ölkələr:**
Azərbaycan, Türkiyə və Özbəkistan

**Layihənin müddəti:**
1 Fevral 2022 -
31 İyul 2025

**Ümumi büdcə:**
710 000
ABŞ dolları

FAO-nun tərifinə görə Torpaq bankçılığı torpaqların mobilliyini artırmaq, kənd təsərrüfatı torpaqları bazarlarının inkişafına kömək etmək, kənd təsərrüfatı və kənd yerlərinin inkişafı, torpaqların dayanıqlı istifadəsi, təbiətin bərpası, ətraf mühitin mühafizəsi, iqlim dəyişikliyi və genişmiqyaslı infrastrukturun tikintisi ilə bağlı dövlət layihələrinin həyata keçirilməsi istiqamətində dövlət siyasətinin məqsədlərinə nail olunması üçün kənd yerlərində torpaqların aralıq alqı-satqısı, mübadilə və ya icarəsini həyata keçirən ictimai məqsədlərə qulluq edən bir qurum tərəfindən icra olunan sistematik fəaliyyətlər məcmusudur.[1]

Türkiyə, Azərbaycan və Özbəkistan müxtəlif torpaq sahibliyi sistemlərinə və kənd təsərrüfatı siyasətlərinə malikdirlər, lakin ortaq məqsədi paylaşırlar: kənd təsərrüfatı torpaqlarından səmərəli və dayanıqlı istifadəni təmin etmək.

[1] Versinskas, T., Vidar, M., Hartvigsen, M., Mitic Arsova, K., van Holst, F. & Gorgan, M. 2020. Legal Guide on Land Consolidation – Based on regulatory practices in Europe. FAO Legal Guide 3. Rome. https://doi.org/10.4060/ca9520en.

# LAYİHƏNİN ƏHATƏ DAİRƏSİ

Layihə bir-birini tamamlayan dörd komponentdən ibarətdir:

- Hər üç ölkədə institusional və hüquqi çərçivənin təhlili;
- Seçilmiş pilot ərazilərdə torpaq bazarının inkişafı ehtiyaclarının və torpaq bankçılığının və digər torpaq idarəçiliyi alətlərinin mümkünlüyünün qiymətləndirilməsi;
- Torpaq bazarının inkişafı kontekstində torpaq bankçılığı və torpaqların konsolidasiyası üçün prosedurların və alətlərin hazırlanmasına dəstəyin verilməsi;
- Torpaq bankı alətlərini idarə etmək və məlumatlılığı artırmaq üçün dövlət sektorunda potensialın gücləndirilməsi.

Layihə həmçinin Türkiyə ilə iki tərəfdaş ölkə - Azərbaycan və Özbəkistan - arasında bilik mübadiləsi və potensialın inkişafı vasitəsilə effektiv regional əməkdaşlıq mexanizminin yaradılmasını hədəfləyir.

Üç ölkə layihənin icrası zamanı institusional potensialın gücləndirilməsinə və kənd təsərrüfatı torpaqlarının idarə edilməsində inteqrasiyalı siyasi yanaşmanın tətbiq edilməsinə yönəlmiş subregional seminarlar və siyasi dialoqlarda əldə edilmiş təcrübələri bölüşəcək və mübadilə edəcək.












# FAO-Türkiyə Tərəfdaşlıq Proqramı haqqında

FAO-Türkiyə Tərəfdaşlıq Proqramının məqsədlərinə ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd yerlərində yoxsulluğun azaldılması, meşələrin dayanıqlı idarə edilməsi, səhralaşma ilə mübarizə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkiyə, Türkmənistan, Özbəkistan və qarşılıqlı maraq kəsb edən digər ölkələrdə ekosistemlərin qorunması daxildir.

Türkiyə Hökümətinin maliyyələşdirdiyi 2007-ci ildə fəaliyyətə başlayan ərzaq və Kənd Təsərrüfatı üzrə FAO-Türkiyə Tərəfdaşlıq Proqramının (FTPP) birinci mərhələsi Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşə Nazirliyinin təqdim etdiyi 10 milyon ABŞ dolları məbləğində olan maliyyə dəstəyi ilə fəaliyyətə başlayıb.

Proqramın birinci mərhələsini əhatə edən 2009-2015-ci illərdə 16 fərqli ölkədə 28 layihə həyata keçirilib. 2014-cü ildə FAO-Türkiyə Tərəfdaşlıq Proqramının 2-ci mərhələsinə və bununla yanaşı 20 milyon ABŞ dolları məbləğində əlavə vəsaitlə FAO-Türkiyə Meşə Tərəfdaşlığı Proqramının (FTFP) birinci mərhələsinə start verilib. Bununla da Türkiyə hökumətinin ümumi töhfəsi 30 milyon ABŞ dollarına çatdırılmışdır.

Yeni mərhələdə aşağıdakı sahələrdə bir sıra layihələr həyata keçiriləcək:

- meşələrin dayanıqlı idarə edilməsi və torpaq resurslarının deqradasiyasının qarşısının alınması;
- qida təhlükəsizliyi və qidalanma;
- kənd təsərrüfatı və kənd yerlərinin inkişafı;
- təbii sərvətlərin qorunması və idarə edilməsi;
- ərzaq təhlükəsizliyi;
- institusional təkmilləşdirmə, milli potensialın artırılması.

**Layihənin Mərkəzi Asiya, Qafqaz və digər ərazilərdə icrası**

**Türkiyənin ümumilikdə 30 milyon ABŞ dolları məbləğində maliyyə dəstəyi**

**28**

**Bugünədək 28 layihənin həyata keçirilməsi**

**19**

**Tərəfdaşlıq proqramının yeni mərhələsində 19 layihə icra edilir**

# ƏLAQƏ

**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO)**

---

**Viorel Gutu**
Mərkəzi Asiya üzrə subregional koordinator və
FAO-nun Türkiyədəki təmsilçisi
sec-src@fao.org

---

**Leyla Akyüz Sönmez**
ərzaq və Kənd Təsərrüfatı sahəsində FAO-Türkiyə
Tərəfdaşlıq Proqramı (FTPP)

---

https://www.fao.org/in-action/fao-turkey-partnership

**Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ankara, Türkiyə**

REPUBLIC OF TÜRKİYE
MINISTRY OF AGRICULTURE
AND FORESTRY

Layihə Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşə Nazirliyi tərəfindən maliyyələşdirilib.

BY NC SA

©FAO, 2022
CC1807AZ/1/12.22